*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 23 oktyabr 2019-cu il № 82 (2399) Qiymıəti 30 qəpik

*Ön xətdən reportaj*

## Ali Baş Komandan İlham ƏLİYEV:

# "Bizim ən böyük gücümüz əsgərlərimizin cəsarəti, vətənpərvərliyidir"

*Dövlətimizin ordu quruculuğuna göstərdiyi diqqət və qayğının nəticəsi olaraq hərbi qüdrəti artan ordumuzla hər yerdə hər kəs öyünür, fəxr edir. Əkinçi də, sürücü də, müəllim də ordumuzun gücünə inanır, inanır ki, Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etməyə qadirdir.*



"N" hərbi hissəsinin qərargahında çox ləngimirik, hərbi avtomobilə əyləşib düşmənlə təmas xəttindəki mövqelərimizə yola düşürük. Əslində, Vətənimizin keşiyini çəkən əsgərlərimizi ziyarət etmək cəmiyyətdə tutduğu vəzifəsindən, mənsubiyyətindən asılı olmayaraq hər bir kəsin vətəndaşlıq borcudur. Gündəlik həyatımızda da tez-tez millət vəkillərinin, incəsənət adamlarının, bir sözlə, ictimaiyyət nümayəndələrinin mütəmadi olaraq cəbhə xəttində əsgərlərlə görüşlərindən xəbər tuturuq. Bu, çox sevindirici haldır və xalqla ordunun sıx bağlılığının tərənnümüdür.

Zabit Vahid Rzayev qeyd edir ki, ziyalıların, cəmiyyətimizdə tanınan adamların əsgərlərlə hər görüşü şəxsi heyətin həyatında unudulmaz hadisəyə çevrilir. Ordu xalqın dəstəyini hiss edəndə güclüdür. İctimaiyyətin bizə qayğısı və diqqəti əsgərlərimizin mənəvi hazırlığında, ruh yüksəkliyində müsbət təsirə malikdir.

Qarşıdakı mövqelərə yaxınlaşırıq.

Gənc zabit İlqar Zeynalov seçdiyi peşədən və müqəddəs vəzifəsindən qürurlandığını bildirir. "Bu gün şərəfli peşə sahibi olaraq Azərbaycan Ordusunun sıralarında xidmətimlə fəxr edirəm. Əsgərlər vurğulayırlar ki, ön xətdə xidmət etməkdən qürur duyurlar. Xidməti vəzifə kimi düşməni daim nəzarətdə saxlayır, mövqelərimizi göz bəbəyi kimi qoruyurlar. Ölkə başçımızın ordumuza göstərdiyi yüksək diqqət və qayğı nəticəsində bütün təminatlarımız yüksək səviyyədədir. Xidməti vəzifələrimizi layiqincə yerinə yetirmək üçün hər cür şəraitimiz var. Xalqın güvəncini, dövlətimizin etimadını daim doğrulduruq. Hər birimiz düşmənə kəskin qılınc, xalqa qalxanıq!", - leytenant İ.Zeynalov deyir.

Səngər həyatı gənclərin sınaq meydanıdır, yüksək mənəvi dəyərlərə malik olan əsgərlər Hərbi anda sədaqətlə xidmət edirlər. Sinəsində Vətən sevgisi gəzdirən oğullar var olsun, deyirəm.

Əsgər Mehdi Nuriyev fikirlərini bölüşür. O da silahdaşları kimi ön xətdə xidmətiylə fəxarət duyur. Deyir ki, Vətənə övladlıq borcunu ön xətdə ödəmək nə yaxşı ki, ona da nəsib olub. "Biz çox güclü bir ordunun əsgərləriyik, hərtərəfli təminatımız, müasir silahtexnikalarımız var. Düşmənə qalib gəlməyə tam qadirik və Ali Baş Komandanın əmriylə döyüşməyə hər an hazırıq. Xidmətimiz uğurla davam edir. Mehriban və səmimi kollektivimiz var. Komandirlərimiz bütün qayğılarımızla maraqlanırlar. Biz də verilən tapşırıqların öhdəsindən layiqincə gəlir, torpaqlarımızın keşiyində inamla dayanırıq".

Əsgər Qurban Kosayev hərbi xidmət haqqında təəssüratlarından, ən yadda qalan günlərindən danışır:

- İllərimin bir hissəsini səngərdə keçirməyimdən, Vətənimə əsgər olmağımdan fərəhlənirəm. Torpaqlarımızı qoruyuruq. Əslində, hər bir gəncin həyatda ən vacib vətəndaşlıq vəzifəsi əsgər kimi, düşmənlə savaşa atılmağa qadir olan mübariz, mərd, igid olmaqdır. Mən də komandirlərimə, təcrübəli yoldaşlarıma minnətdaram ki, onların sayəsində Vətənimizi qorumağı bacaran əsgər kimi formalaşdım. Orduda keçən günlərimi həyatımın ən mənalı bir dövrü sayıram. Hərbi xidmətə gəldiyim, ilk dəfə sırada dayandığım, təntənəli şəkildə Hərbi andı içdiyim günlər, ilk dəfə döyüş növbətçiliyində dayandığım gün yaddaşıma həmişəlik həkk olunub.

Gənclərimiz Vətənə, xalqa sədaqət ruhunda formalaşıblar, hər birimizin ürəyi Vətən sevgisi ilə döyünür. Əsgər Rəhim Məmmədov deyir ki, bizə Vətənimizin qorunması etibar edilib. "Burada xidmət edən hər kəs kimi, mən də qürur duyuram ki, Vətəni qoruyanlardanam. Bu müqəddəs vəzifədir. Məsuliyyətini də yaxşı dərk edirəm. Qarşıda torpaqlarımıza göz dikən düşmən var. Hər an ayıq-sayıq xidmət aparır, qələbələr üçün əmr gözləyirik."

Səngərdə söhbətləşdiyim əsgərlərdən biri - Ziyafət Şirəliyev Milli Qəhrəman Mübariz İbrahimovun həmyerlisidi. O da Milli Qəhrəmanın həyat yolunu özünə örnək bildiyini deyir:

- Boya-başa çatdığım rayonda, oxuduğum məktəbdə, ailəmdə daim Mübarizin qəhrəmanlığı, şücaəti haqqında eşitmişəm. Məktəbimizdə də onun anım tədbirləri keçirilir, ağsaqqallarımız, ziyalılarımız qəhrəman haqqında ürək sözlərini deyir, bizə də igidliyi, vətənpərvərliyi ondan öyrənməyi tövsiyə edirdilər. Mən də hərbi xidmətdə hərbi sirlərə yiyələnib, döyüş vərdişləri qazanmışam. Səngərdə Vətənimizin keşiyində dayanmaqdan qürurluyam. Müqəddəs vəzifələrimizin öhdəsindən layiqincə gəlir, döyüş qabiliyyətimizi mütəmadi olaraq artırırıq.

Əsgərlərlə səmimi söhbətimizdə Vətən, torpaq, dövlət, dövlətçilik haqqında danışmışdıq. Onlar Ali Baş Komandanın döyüş əmrinə hazır olduqlarını demişdilər və böyük qürurla, bu qürurun yaratdığı böyük məsuliyyətlə Ali Baş Komandanın bir fikrini də xatırlatdılar: "Bizim ən böyük gücümüz əsgərlərimizin cəsarəti, vətənpərvərliyidir". Bu gün Azərbaycanda elə gözəl gənc nəsil yetişib ki, onların hamısı Ali Baş Komandanın əmrini gözləyir". Hər birimiz ölkə başçısının Azərbaycan əsgərinin döyüş və mənəvi-psixoloji hazırlığına verdiyi bu dəyəri qələbəylə tamamlamağa hazırıq...

Döyüş mövqeyində digər əsgərlər də əsas amallarının torpaqlarımızı işğaldan azad etmək olduğunu deyirlər.

**"Azərbaycan Ordusu"**

# Pekində Azərbaycan və Çin Müdafiə nazirlərinin görüşü keçirilib

*Çin Xalq Respublikasında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Pekində keçirilən IX Syanşan Forumunda iştirak edib.*






Səfər çərçivəsində Müdafiə naziri, həmçinin Çinin müdafiə sənayesi kompleksinə daxil olan "Poly Technologies" və "CETC International" şirkətlərinin nümayəndələri ilə görüşüb.

Görüşlərdə Azərbaycan ilə Çin arasında hərbi-texniki əməkdaşlıq məsələləri müzakirə olunub.

* * *

Çində səfərdə olan Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov oktyabrın 22-də Çin Xalq Respublikası (ÇXR) Dövlət Şurasının üzvü, ÇXR-in Milli Müdafiə naziri general-polkovnik Vey Fenxe ilə görüşüb.

Nazir V.Fenxe Çin ilə Azərbaycan arasında münasibətlərin böyük tarixi olduğunu, müasir dövrdə əlaqələrimizin hər iki xalqın marağına uyğun inkişaf etdiyini deyib. O, ÇXR Sədri Si Cinpinin irəli sürdüyü "Bir kəmər, bir yol" təşəbbüsünün iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlıq üçün yeni imkan yaratdığını deyib. V.Fenxe Azərbaycanın bu təşəbbüsün icrasında fəallıq göstərdiyini vurğulayıb. Azərbaycan Prezidenti İlham Əliyevin aprel ayında Pekində 2-ci "Bir kəmər, bir yol" beynəlxalq əməkdaşlıq forumunda iştirakını məmnunluqla yada salıb.

Çin rəsmisi iki ölkənin hərbi sahədə əməkdaşlığından danışaraq, hərbçilərin qarşılıqlı səfərlərinin bu işə töhfə verdiyini deyib.

V.Fenxe ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini dəstəklədiyini bir daha bəyan edib.

Çin Xalq Respublikasına dəvətə görə təşəkkürünü bildirən Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov bildirib ki, tarixən iki xalq arasında yaranmış dostluq münasibətləri ölkələrimizin əlaqələrinin inkişafında möhkəm təməl rolunu oynayır.

Nazir ölkələrimizin rəhbərlərinin və yüksək vəzifəli rəsmi şəxslərin qarşılıqlı səfərlərinin son vaxtlar intensivləşdiyini, ÇXR Sədri Si Cinpinin dəvəti ilə Prezident İlham Əliyevin apreldə "Bir kəmər, bir yol" beynəlxalq əməkdaşlıq forumunda iştirakının Azərbaycanın bu layihədə vacib ölkə olduğunu göstərdiyini deyib.

Müdafiə naziri Çinin Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə olan davamlı dəstəyinə görə təşəkkür edib, Azərbaycanın da "Vahid Çin" siyasətini dəstəklədiyini və beynəlxalq aləmdə ÇXR-i təmsil edən təşkilatları tanıdığını deyib.

Görüşdə hərbi, hərbi-texniki, hərbi təhsil və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib. Tərəflər iki ölkə arasında hərbi sahədə əməkdaşlığın genişləndirilməsi üçün hüquqi bazanın möhkəmləndirilməsinin vacibliyini vurğulayıb, bu istiqamətdə hüquqi sənəd imzalanması barədə ilkin razılığa gəliblər.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

## NATO kontr-admiralı:

# Azərbaycan Ordusunun hərbi qulluqçularının peşəkarlıq səviyyəsi onların güclü olduğundan xəbər verir

*Azərbaycan Ordusunun hərbi qulluqçularının peşəkarlıq səviyyəsi onların güclü olduğundan xəbər verir. Bunu NATO-nun Müttəfiq Qüvvələrin Avropadakı Ali Baş Qərargahında (SHAPE) Tərəfdaşlıq İdarəsinin rəisi, kontr-admiral Bülent Turan Müdafiə Nazirliyinin saytına müsahibəsində deyib.*

Azərbaycanda "NATO günləri"nin əhəmiyyətini yüksək qiymətləndirən Bülent Turan tədbir zamanı bir neçə təşkilat və hərbi müəssisələrdə olduqlarını bildirərək deyib: "Mənimlə birlikdə səfərdə olan nümayəndə heyətinin tərkibində bir neçə ölkənin və NATO-nun qərargah zabitləri iştirak edirdilər. Bu nümayəndə heyəti ilə birlikdə qarşılıqlı olaraq azərbaycanlı həmkarlarımızla təcrübə, məlumat və fikir mübadiləsi apardıq. Bu səbəbdən düşünürəm ki, bu tədbir bir neçə fəaliyyətin ardı kimi də davam etdirilə bilər. Bu il Azərbaycanda icra olunmuş 11-ci "NATO günləri"ni əməkdaşlığın davamı üçün çox gözəl platforma hesab edirəm.

Azərbaycan tərəfinin "NATO günləri"nə, eyni zamanda, NATO ilə əməkdaşlıq çərçivəsində keçirilən tədbirlərə diqqətini çox yüksək qiymətləndirir və bundan böyük məmnunluq hissi keçirdiyimizi qeyd etmək istərdim. Məhz bu səbəbdən Azərbaycanın NATO ilə əməkdaşlıqda daha fəal və konstruktiv mövqe nümayiş etdirən tərəfdaş ölkələrdən olduğunu düşünürük. Tədbir zamanı ziyarət etdiyimiz müəssisələrdə hərbi qulluqçuların ünvanladığı suallar və auditoriyanın təqdimatlar zamanı diqqət və fəallıq nümayiş etdirməsinin bunun əyani sübutu olduğunu düşünürəm. Həqiqətən də, bu tədbirə olan maraq bizləri həddindən artıq məmnun etdi".

Kontr-admiral vurğulayıb ki, bu il Azərbaycanın NATO ilə əməkdaşlığının 25 illiyi tamam olub. Bu məqam isə uzun bir zamanı ehtiva edir. Müşahidələr göstərir ki, Azərbaycan NATO ilə əməkdaşlıq çərçivəsində ən fəal tərəfdaş ölkələrdən biri hesab edilir. Biz Azərbaycanı NATO-nun müxtəlif əməliyyatlarında, Tərəfdaşlığın Qərargah Vəzifəsi Zabiti olaraq müxtəlif NATO qərargahlarına töhfə verməsində, eləcə də Əməliyyat İmkanları Konsepsiyası Qiymətləndirmə və Rəy Proqramı çərçivəsində fəal tərəfdaş ölkə olaraq görürük. Bu səbəbdən Azərbaycan NATO üçün önəmli, eyni zamanda, əhəmiyyətli tərəfdaşlardan hesab edilir.




NATO-nun perspektivi baxımından qiymətləndirsək onu vurğulamaq lazımdır ki, əməkdaşlıq sadəcə məlumat mübadiləsi ilə kifayətlənmir. Tərəfdaşların əldə etdiyi dəyərli təcrübələrin öyrənilməsi və paylaşılması da NATO üçün böyük əhəmiyyət kəsb edir. Bu isə öz növbəsində qarşılıqlı faydalanmanı, necə deyərlər hər iki tərəf üçün "qazanclı əməkdaşlığı" özündə ehtiva edir. Beləliklə də, inanıram ki, rəhbərlik etdiyim nümayəndə heyəti azərbaycanlı həmkarlarımızdan çox dəyərli biliklər və təcrübələr əldə edib. Buna görə də bu tədbirin NATO üçün də böyük əhəmiyyət kəsb etdiyinə əminəm.

Baxmayaraq ki, Azərbaycan fəal və konstruktiv əməkdaşlıq nümayiş etdirir, fəaliyyət proqramı çərçivəsində ziyarətlərimiz əsnasında bir neçə inkişaf etdirilməsi mümkün olan sahələri də müşahidə etdik. Müşahidələrimiz ona əsas verir ki, bu inkişaf tempini qoruyub saxlamaq və daha irəli getmək əhəmiyyətlidir. Biz də öz növbəmizdə qərargahlarımıza geri döndükdən sonra müvafiq olaraq bu istiqamətdə fəaliyyətlərimizi genişləndirmək niyyətindəyik. Xüsusilə təlim üzrə və qərargah vəzifələrində də irəliləyişə ehtiyac olduğunu vurğulamaq istərdim. Mən bununla sadəcə bu sahələri deyil, eyni zamanda, mümkün ola biləcək digər sahələrdə də inkişaf perspektivlərini nəzərdən keçirəcəyimizi düşünürəm.

Son beş gün ərzində biz Azərbaycanda icra olunan illik "NATO günləri"ndə iştirak etdik. Qeyd etmək istərdim ki, bu, mənim Azərbaycana ilk səfərim idi. Əslində, vurğulamaq istərdim ki, ali rütbəli bir türk zabiti olaraq, Azərbaycana ziyarətim xoş bir təsadüf hesab edilə bilər. Azərbaycanın fəal tərəfdaş ölkə olmasını görmək bizi də heyrətləndirir. Sadəcə xatırlatmaq yerinə düşər ki, hamımızın da bildiyi kimi, Azərbaycan NATO-nun müxtəlif əməliyyatlarına önəmli şəkildə töhfə verən ölkələrdəndir. Vaxtilə NATO-nun Kosovodakı sülhməramlı əməliyyatlarında və hazırda da NATO-nun Əfqanıstanda icra etdiyi "Qətiyyətli Dəstək" Missiyasına töhfə verən fəal tərəfdaş ölkələrdən biridir. Bununla belə, inanıram ki, qısa müddət ərzində Azərbaycan NATO-nun İraq Missiyasına da öz töhfəsini verən ölkələrdən olacaqdır. Eyni zamanda, bildirmək istərdim ki, səfər çərçivəsində Azərbaycan Ordusunun hərbi qulluqçularının peşəkarlıq səviyyəsini müşahidə etməyimiz Azərbaycan Silahlı Qüvvələrinin müvəffəqiyyətli və güclü olduğundan xəbər verir.

# Cocuq Mərcanlıda "Xalqla Ordu əl-ələ"

## devizi altında kütləvi vətənpərvərlik bayramı keçirilib

*Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Cəbrayıl rayon İcra Hakimiyyəti və Azərbaycan Milli Kulinariya Mərkəzinin birgə təşkilatçılığı ilə Cocuq Mərcanlı kəndində 20 oktyabr - Beynəlxalq Kulinariya Günü münasibətilə "Xalqla Ordu əl-ələ" devizi altında kütləvi vətənpərvərlik bayramı keçirilib.*



Müdafiə Nazirliyinin rəsmiləri, Cəbrayıl, Füzuli, Beyləqan, Xocavənd rayonlarının nümayəndələri, Azərbaycanın dünya şöhrətli kulinarlarından bir qrupu, Azərbaycan Ordusunun bütün qoşun növlərinin birləşmə və hərbi hissələrini təmsil edən baş aşpazlar və digər qonaqlar əvvəlcə Horadiz şəhərinə gedərək xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət edib, abidənin önünə tər güllər düzüblər.

Qonaqları salamlayan Füzuli rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev Horadizin və rayonun 22 yaşayış məntəqəsinin düşmən işğalından azad edilməsində ulu öndər Heydər Əliyevin müstəsna xidmətləri olduğunu diqqətə çatdırıb. Bildirib ki, 1993-cü ilin payızında Ulu Öndərin bölgəyə gəlişi, ön səngərlərdə hərbçilərlə görüşü onlarda yüksək döyüş ruhu və yüksək vətənpərvərlik, qələbəyə inam hissi aşılaması sayəsində dekabrın sonlarında işğal olunmuş ərazilərin azad edilməsi uğrunda hücuma keçən igid oğullarımız 1994-cü ilin ilk yanvar günlərində Horadiz qəsəbəsi və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi də daxil olmaqla 20-dən çox yaşayış məntəqəsini azad ediblər. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Horadiz və işğaldan azad olunmuş digər yaşayış məntəqələri bərpa edilərək yenidən qurulub, hər cür infrastruktur yaradılıb və məcburi köçkünlər öz doğma yurdlarına geri qayıdıblar. A.Alıyev vurğulayıb ki, Horadiz qəsəbəsinin azad edilməsi Ümummilli Liderin adı ilə bağlıdırsa, bu yaşayış məntəqəsinin daha da inkişaf etməsi və qəsəbəyə şəhər statusunun verilməsi dövlətimizin başçısı, Heydər Əliyev siyasi kursunun layiqli davamçısı İlham Əliyevin adı ilə bağlıdır. Prezidentimizin dəfələrlə qeyd etdiyi kimi, biz Horadiz şəhərinin timsalında dirçələn Azərbaycanı, ordumuzun gücünü və Heydər Əliyev siyasətinin təntənəsini görürük.



Horadiz şəhəri ilə tanışlıqdan sonra tədbir iştirakçıları Aprel şəhidlərinin xatirəsinə ucaldılmış abidə kompleksini ziyarət edərək ehtiramlarını bildiriblər. Burada qeyd olunub ki, 2016-cı ilin uğurlu Aprel döyüşlərindən sonra bir çox strateji yüksəkliklər, eləcə də Lələtəpə zirvəsi düşmənlərdən azad edilərək ərazi tam nəzarətə götürülüb. Bundan sonra Cəbrayılın Cocuq Mərcanlı kəndində quruculuq, abadlıq işlərinə başlanılıb və yaşayış məntəqəsi, sözün həqiqi mənasında, kül altından boy ataraq müasir bir kəndə çevrilib.

Qonaqlar işğal altında olan digər torpaqlarımızın da tezliklə azad ediləcəyinə əminliklərini ifadə edərək Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin səyyar səsyayma avtomobilindən səsləndirilən "Aprel zəfəri" marşının sədaları altında Cocuq Mərcanlıya doğru irəliləyiblər. Kəndə gedən yolun sağ və sol tərəflərində hər bir şəhidin xatirəsinə əkilmiş çinar ağacları artıq qol-budaq atıb, pambıq sahələri üzə gülür, kənd gül-çiçəyə qərq olub. Sakinlər əmin-amanlıq içində firavan yaşayır, əkib-becərirlər. Şagirdlər isə ən müasir məktəbdə təhsillərini davam etdirirlər.

Kəndin mərkəzində salınmış "Qayıdış parkı"nın qarşısında qonaqları Cəbrayıl rayon İcra Hakimiyyətinin rəhbərliyi qarşılayıb. Rayon icra hakimiyyətinin başçısı Kamal Həsənov kulinariya işçilərini, həmçinin Azərbaycan Ordusunun bu sahədə çalışan əməkdaşlarını Beynəlxalq Kulinariya Günü münasibətilə təbrik edib. Cocuq Mərcanlının tarixindən, birinci Qarabağ müharibəsi zamanı tamamilə bu kəndin dağıdılmasından, viran edilməsindən, əhalinin doğma yurd-yuvalarından məcburi köçkün düşməsindən, bu yerlərdə gedən qanlı döyüşlərdə neçə-neçə əsgər və hərbçimizin şəhid olmasından, itkin düşməsindən, 2016-cı ilin Aprel zəfərindən sonra Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə kəndin yenidən qurulmasından və Qarabağa qayıdışın ilk köçünün məhz Cocuq Mərcanlıya olmasından danışaraq dövlətimizin başçısına bütün cəbrayıllıların minnətdarlığını bildirib.

Kütləvi vətənpərvərlik bayramının ssenari müəllifi və quruluşçu rejissoru Müdafiə Nazirliyinin nümayəndəsi, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani proqramı elan edib və onun bələdçiliyi ilə Cocuq Mərcanlıda "Xalqla Ordu əl-ələ" kütləvi vətənpərvərlik bayramına start verilib.

Oğuz elinin ağsaqqalı Dədə Qorqud Azərbaycan xalqına birlik, həmrəylik, ordumuzun döyüşçülərinə, xalqımıza tezliklə yeni-yeni qələbə müjdələri gətirməyi arzulayıb. Dədə Qorqud alqışları "Qayıdış parkı"nda əks-səda verib: "Kölgəlicə qaba ağacınız kəsilməsin! Çapaçapda ağ bədöy atlar büdrəməsin! Heç kəs namərdə möhtac olmasın! Məclislərinizdə çalıb-çağıran ozan olsun! Gur axan çaylarınız qurumasın! Uca dağlarınız yıxılmasın! Yeməyiniz isti, suyunuz sərin olsun! İgidlərimiz, ərənlərimiz baş sərkərdənin rəhbərliyi altında yolumuzu gözləyən cənnət Qarabağımızdan zəfər müjdələri gətirsin! Köçən ellərimiz tezliklə doğma yurd yerlərinə qayıtsın! Amin!"

"Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Cəbrayıl və Füzuli rayon filiallarında istehsal olunan Qarabağ xalçalarından ibarət sərgilər tamaşaçıların böyük marağına səbəb olub. Azərbaycan Milli Kulinariya Mərkəzinin əməkdaşlarının təşkil etdiyi "Azərbaycan mətbəxi" kitab sərgisində dünya şöhrətli kulinarımız, Əməkdar mədəniyyət işçisi, tarix üzrə fəlsəfə doktoru Tahir Əmiraslanovun kitabları sərgilənib. Onun uzun illərdir ki, hətta Azərbaycanın milli mətbəxini də özününküləşdirməyə çalışan ermənilərlə mübarizəsindən və həmişə də qalib çıxmasından söhbət açılıb. Qonaqlara Tahir Əmiraslanovun müəllifi olduğu kitablardan ibarət bağlamalar hədiyyə edilib. Azərbaycan kulinarlarının hazırladıqları un və qənnadı məhsullarının nümunələri nümayiş olunub. Azərbaycan kulinarlarının bayram hədiyyələri, bağlamalar, xonçalar döyüş mövqelərinə göndərilib.

Müdafiə Nazirliyinin Maddi-Texniki Təminat Baş İdarəsi Arxa Cəbhə İdarəsinin Ərzaq xidməti, eləcə də bölgənin müdafiəsində dayanan hərbi hissənin təşkil etdiyi sərgidə qələbəlik yaşanıb. Polkovnik-leytenant Vüqar Abdullayev "Əsgər payı" guşəsində ordumuzun şəxsi heyətinin ərzaq təminatından danışaraq müxtəlif çeşidli məhsullar haqqında məlumat verib. Qonaqlar Ali Baş Komandan İlham Əliyevin hərbi hissələrin əsgər yeməkxanalarında şəxsi heyətlə bir süfrə ətrafında nahar etdiyini, yaradılan şəraitlə tanış olduğunu əks etdirən fotomateriallara baxıblar. Tədbir iştirakçıları ordunun məşhur və peşəkar aşpazlarından olan Ədilxan Məmmədovun hazırladığı 10-dan çox un və qənnadı məhsulu, eləcə də səhra mətbəxində hazırlanan əsgər yeməklərinin və "Şah plov"un dadına baxıblar.



Azərbaycan Ordusu aşpazlarının beynəlxalq müsabiqələrdə qazandığı mükafatlar, kuboklar, prizlər, medallar, diplomlar nümayiş olunub. Yarışların iştirakçıları Beynəlxalq Ordu Oyunlarından Vətənə həmişə uğurla qayıtdıqlarını bildirib və bu il də Azərbaycanın hərbi aşpazlarının beynəlxalq müsabiqədə qalib 4 komanda içərisində yer aldığı məlumatı verilib.

Füzuli Dövlət Dram Teatrının aktyorlarının ifasında İmadəddin Nəsiminin, Babəkin, Cavanşirin, Əmir Teymurun, Qaçaq Nəbinin, Həcərin və digər şəxsiyyətlərin obrazları canlandırılıb. "Arşın mal alan", "O olmasın, bu olsun" milli filmlərimizin qəhrəmanları əsl bayram əhval-ruhiyyəsi yaradıblar.

Cəbrayıl, Füzuli, Beyləqan və Xocavənd rayonlarının tarixinin, folklorunun, etnoqrafiyasının, adət-ənənələrinin, milli mətbəxinin təqdim olunduğu guşələrdə böyük canlanma olub. Muğam və xalq mahnıları səslənib, milli rəqslər ifa edilib. Bölgənin müdafiəçiləri ilə ictimaiyyət nümayəndələri bir süfrə arxasında çörək kəsib, çay içib, cəbhəyanı bölgənin bağlarının payız barından tutulmuş meyvə xonçalarına tamaşa ediblər.

Bədii özfəaliyyət kollektivləri öz məharətlərini göstərib. Bakıdan gəlmiş "Səma" rəqs ansamblının üzvlərinin ifa etdikləri "Azərbaycan süita"sı, "Sarı gəlin" rəqsi, "Türk yallı"sı alqışlarla qarşılanıb.

Parkın amfiteatrında kütləvi vətənpərvərlik bayramının qala-konsert hissəsi başlanmazdan öncə ulu öndər Heydər Əliyevin və respublikamızın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsi ehtiramla yad edilib, Dövlət himni ifa olunub.

"Qarabağ Azərbaycandır!" ədəbi-musiqili xoreoqrafik kompozisiyası təqdim olunub. Cəbrayıl rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov bir daha bayram iştirakçılarını salamlayaraq onlara uğurlar arzulayıb. Ölkə rəhbərliyinə, şəxsən dövlətimizin başçısı Ali Baş Komandan İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Azərbaycan dövləti və xalqı naminə yorulmaz fəaliyyətlərinə görə minnətdarlıq edib. Ölkə rəhbərliyinin apardığı uğurlu daxili və xarici siyasətin bütün xalq tərəfindən dəstəkləndiyi qeyd olunub.

(Ardı 6-cı səhifədə)

# Azərbaycan Ordusunda Dövlət Müstəqilliyi Günü münasibətilə silsilə tədbirlər keçirilib

*Azərbaycanın Dövlət müstəqilliyinin elan edilməsinin 28 illiyi münasibətilə Əlahiddə Ümumqoşun Ordu, Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində yerli icra hakimiyyəti orqanları və ictimai qurumların nümayəndələri ilə birgə bayram tədbirləri təşkil olunub. Əvvəlcə ümummilli lider Heydər Əliyevin və müstəqilliyimiz, ərazi bütövlüyümüz uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.*




Naxçıvan Qarnizonunda baş tutan silsilə tədbirlər çərçivəsində hərbi qulluqçular arasında "Hər sözümüz Vətən desin!" adlı şeir müsabiqəsi keçirilib.

Tədbirdə Əlahiddə Ümumqoşun Ordu Komandanının müavini general-mayor Elman Orucov dövlət müstəqilliyinin qazanıldığı ilk illərdə muxtar respublika əhalisinin ümummilli liderimiz Heydər Əliyevin ətrafında sıx birləşməsindən, dahi liderin Naxçıvanı düşmən işğalından qorumasından danışıb. Vurğulanıb ki, bu gün ordu quruculuğu siyasəti uğurla davam etdirilir və Naxçıvanın müdafiə potensialı daha da möhkəmləndirilir. Yaradılan şəraitin nəticəsidir ki, hərbçilərimiz müxtəlif yarış və müsabiqələrdə də öz bacarıqlarını nümayiş etdirir, birinci olmaq üçün mübarizə aparırlar.

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Əliyev, Yazıçılar Birliyinin üzvləri Həsənəli Eyvazlı, Əbülfəz Ülvi, Zeyqəm Vüqar və digər çıxış edənlər xalq-ordu birliyindən danışıb, "Hər sözümüz Vətən desin!" adlı şeir müsabiqəsinin hərbi qulluqçuların yaradıcılıq qabiliyyətlərinin və qiraət bacarıqlarının üzə çıxarılmasında mühüm rol oynadığını qeyd ediblər.

Çıxışlardan sonra müsabiqədə iştirak edən zabit və əsgərlər Vətənimizə həsr edilmiş şeirləri qiraətlə səsləndiriblər.

Tədbirin sonunda müsabiqənin qalibləri mükafatlandırılıb.

Silsilə tədbirlər çərçivəsində Heydər Əliyev adına Hərbi Liseyin təşkilatçılığı ilə "Müstəqilliyimiz əbədidir" mövzusunda tədbir keçirilib.

Tədbirdə çıxış edən Hərbi liseyin rəisi general-mayor Məhəmməd Həsənov bildirib ki, 2018-ci ilin mayında Naxçıvan Muxtar Respublikasının 11 min hektar ərazisi və Şərur rayonunun Günnüt kəndi düşməndən azad edildi. Təbii ki, bütün bunlar da müstəqilliyimizin dayağı olan ordumuzun qüdrətindən xəbər verir.

Sonra Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin dərnək və ansamblının üzvləri mahnılar və milli rəqslər ifa edib, Heydər Əliyev adına Hərbi Liseyin kursantları Vətənimizə həsr edilmiş şeirləri səsləndirib. Naxçıvan Musiqi Kollecinin "Gənclik" instrumental ansamblının solistləri və Naxçıvan Dövlət Universitetinin tələbələri konsert proqramı ilə çıxış ediblər.



Sonda tədbirdə fəal iştirak edənlər mükafatlandırılıblar.

**Leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi**

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində keçirilən tədbirdə çıxış edən polkovnik Emin Səfərov bildirdi ki, "1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında "Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul olundu. Bu mühüm tarixi sənədlə xalqımız uzun illərdən bəri həsrətində olduğu azadlığına qovuşdu. Müstəqilliyi elan etmiş Azərbaycan Respublikası çox mürəkkəb tarixi şəraitdə fəaliyyət göstərməyə başladı, müstəqilliyin ilk illərində xalqımız yenidən onu itirmək təhlükəsi ilə üzləşdi. Azərbaycan dövlət kimi məhv olmaq, parçalanmaq üzrə idi. Ermənistan Azərbaycana qarşı elan etmədən müharibəyə başlamışdı, kəndlərimiz, şəhərlərimiz işğal olunurdu. Belə bir şəraitdə xalq Heydər Əliyevi təkidlə hakimiyyətə dəvət etdi. 1993-cü il iyunun 15-də hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyevin müdrik siyasəti nəticəsində ölkəmiz xaos və anarxiyadan xilas olaraq, inkişaf yoluna çıxdı. Məhz Ümummilli Liderimizin qətiyyətli siyasəti, müdrikliyi və uzaqgörənliyi sayəsində respublikamızın müstəqilliyi qorunub saxlanıldı, möhkəmləndirildi, dönməz, əbədi və sarsılmaz xarakter aldı. Müstəqil Azərbaycan Respublikası möhkəm əsaslar üzərində yeni inkişaf xəttini tutdu. Respublikamızı Şərqdə ilk demokratik cümhuriyyət olan Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan edən ümummilli lider Heydər Əliyev müstəqilliyi qorumağın onu əldə etməkdən qat-qat çətindir məntiqi ilə nəhəng dövlət quruculuğu işlərinə başladı. Qısa vaxt ərzində Azərbaycanın səsi ən nüfuzlu beynəlxalq təşkilatların kürsüsündən gəldi. Müstəqilliyin əvəzsiz bir nemət olduğunu və xalqın tarixi taleyində çox önəmli rol oynadığını böyük qürur hissi ilə bəyan edən Heydər Əliyev Azərbaycanın müstəqilliyini əbədi və dönməz etdi."




Xalq artisti Azərin bildirdi ki, Azərbaycanın müstəqillik və inkişaf yoluna nəzər salanda görürük ki, dövlətin xalqla sıx birliyi və xalqın hakimiyyətə, onun siyasətinə böyük inamı nəticəsində Azərbaycan müstəqilliyini qorudu və böyük nailiyyətlər əldə etdi. Müstəqil dövlətimizin qədrini bilmək, onu qorumaq, inkişafına əlimizdən gələn köməyi göstərmək hər birimizin müqəddəs borcudur.

Xalq artisti Azərinin vətənpərvərlik ifaları tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılandı.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

Cəmşid Naxçıvanski adına Hərbi Liseydə polkovnik Müslüm Nəsirov çıxış edərək şəxsi heyəti bayram münasibətilə təbrik etdi. Azərbaycanın dövlət müstəqilliyinin əbədi, sarsılmaz və dönməz olduğunu vurğuladı. Qeyd etdi ki, dövlət üçün müstəqillikdən, vətəndaş üçün azadlıqdan üstün heç nə yoxdur. "Ulu və zəngin keçmişə malik Azərbaycan xalqı müstəqil dövlət uğrunda uzun və mübarizələrlə dolu bir yol keçib, qəhrəmanlıq salnaməsi yazıb. Ulu öndər Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay yaşamasına baxmayaraq, nəsillərin yaddaşında xalqımızın ən parlaq səhifələrindən biri kimi qalacağını vurğulayırdı. Ümummilli Lider deyirdi: Biz nadir bir irsin varisləriyik, hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dününənə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır".

Azərbaycan özünün əsl müstəqilliyinə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra nail oldu. Heydər Əliyev özü ilə bərabər Azərbaycana siyasi müdriklik gətirdi, zəngin siyasi təcrübə, yüksək idarəçilik bacarığı və Vətənə tükənməz sevgisi ilə Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı.

Polkovnik M.Nəsirov müstəqilliyi qoruyub saxlamaq onu qazanmaqdan qat-qat çətindir tezisinə istinadən, bu işdə ordunun üzərinə böyük məsuliyyət düşdüyünü vurğuladı. Güclü ordunun müstəqilliyin qarantı olduğunu bildirərək, müstəqillik qazandıqdan sonra ordu quruculuğunda gedən inkişafdan söz açdı:

- Əbədiyaşar Komandan ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi ordu quruculuğunda da inkişafa nail ola bildi. O, yerli özünümüdafiə və könüllü batalyonlar adı altında fəaliyyət göstərən silahlı birləşmələri ləğv edərək, vahid komandanlığa tabe olan nizami ordu yaratdı. Nəticədə, Azərbaycanda nizami ordu quruculuğu formalaşdırılmağa başladı. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ordu quruculuğu ilə bağlı həyata keçirdiyi tədbirlər bu gün Ali Baş Komandan İlham Əliyev tərəfindən inamla, uğurla davam etdirilir. Ordu quruculuğunda əsaslı islahatlarla yanaşı, ordumuz yeni silah və texnika ilə təchiz edilib. Bu gün təməli Ulu Öndər tərəfindən qoyulan ordumuz müstəqilliyimizin, dövlətçiliyimizin qarantıdır, regionun ən güclü ordusudur.

**(Ardı 5-ci səhifədə)**

# Azərbaycan Ordusunda Dövlət Müstəqilliyi Günü münasibətilə silsilə tədbirlər keçirilib



(Əvvəli 4-cü səhifədə)

Belə mötəbər günləri tezliklə ata-baba torpaqlarımızda qeyd etmək, üçrəngli bayrağımızı Şuşada, Laçında, Kəlbəcərdə dalğalandırmaq arzusu ilə hər birinizi bayram münasibətilə təbrik edir, şərəfli xidmətinizdə uğurlar arzulayıram.

Tədbirdə çıxış edənlər 28 illik müstəqillik dövründə Azərbaycanda bütün sahələrdə gedən inkişafdan, ölkəmizin regionda iştirak etdiyi irimiqyaslı layihələrdən, ordumuzun Aprel və Günnüt qələbələrindən söz açdılar. Liseyin kursantları vətənpərvərlik mövzusunda şeirlər söylədilər.

Sonda tədbirin təşkilində zəhməti keçən şəxslər fəxri fərmanlarla mükafatlandırıldı, xatirə şəkli çəkildi.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**



"N" hərbi hissəsində keçirilən tədbiri giriş sözü ilə H.Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi mayor İlkin Qayıbov açaraq şəxsi heyəti təbrik etdi, onlara xidmətlərində uğurlar arzuladı. Müstəqil Azərbaycanımızın qurucusu kimi milli dövlətçiliyimizin ideya əsasının məhz ulu öndər Heydər Əliyev tərəfindən yaradıldığını qeyd edən Mərkəz rəisi bildirdi ki, müstəqillik, azərbaycançılıq, demokratiya, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərləri birləşdirən yeni ideologiyanın əsasını Ümummilli Liderimiz qoydu. "Ulu Öndər "Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir" məşhur kəlamına sadiq qaldığını bütün dünyaya sübut etdi. Bu gün Ümummilli Liderimizin zəngin irsi, ideyaları və tövsiyələri müasir cəmiyyətimizin ideya istiqamətidir. Xalqımız hər il Ulu Öndər ideyalarına sadiq Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında öz dövlət müstəqilliyini böyük coşqu ilə bayram edir."



Tədbirdə çıxış edən qonaqlar əsgər və zabitlərimizi Müstəqillik Günü münasibətilə təbrik etdilər.

Gizirlər Vüsalə Babayevanın və Rəməli Məmmədovun birgə quruluş verdikləri milli rəqslər, Nigar Rəhimovanın ifa etdiyi xalq mahnıları, Aynur Dadaşovanın, Rüfət Axundovun ifasında ritmik musiqilər, bəstəkar mahnıları şəxsi heyətdə xoş ovqat yaratdı.

Qiraətçi Ayaz Məmmədov Tofiq Bayramın "Azərbaycan deyəndə" məşhur şeirini səsləndirdi.

Respublikanın Əməkdar artisti Mətanət İsgəndərli Ali Baş Komandana, Azərbaycana, Ana Vətənə, torpağa, bayrağa həsr edilən vətənpərvərlik ruhlu bəstəkar mahnılarını ifa etdi.

Bayram tədbirinin sonunda hərbi hissə rəhbərliyinin adından şəxsi heyətin hərbi vətənpərvərlik ruhunda tərbiyəsində fəal iştirakına görə təşkilatçılara, mədəniyyət və incəsənət nümayəndələrinə fəxri fərman təqdim olundu.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

Azərbaycan Hərb Tarixi Muzeyində Azərbaycanın Dövlət Müstəqilliyi Gününə həsr edilmiş tədbiri giriş sözü ilə açan muzeyin rəisi, ehtiyatda olan polkovnik Əzizağa Qənizadə çıxışında Azərbaycan Respublikasının müstəqillik tarixinə nəzər saldı və onu xalqımızın tarixi nailiyyəti adlandırdı. "Tarixən böyük imperiyalar qurmuş və zəngin dövlətçilik ənənələrinə malik Azərbaycan xalqı XIX əsrdə itirilmiş dövlətçiliyini bir əsr sonra bərpa etməyi bacardı.

Müstəqilliyini elan etdikdən sonra Azərbaycan Respublikası çox mürəkkəb tarixi şəraitdə fəaliyyət göstərməyə başlamışdı. Ermənistanın ərazilərimizə təcavüzü, hakimiyyətdəki boşluqlar ucbatından dövlətimiz ciddi çətinliklərlə rastlaşdı, hətta müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qaldı. Xalqın təkidli tələbi ilə böyük siyasi təcrübəyə malik Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışı bu təhlükələri sovuşdurdu. Böyük iradə və gərgin zəhmət bahasına ölkə daxilində sabitlik yaratmağa başladı və respublikamızın inkişafı üçün zəmin yarandı. Azərbaycanın istər daxili, istərsə də, xarici siyasətlə bağlı inkişaf yolu müəyyən edildi, respublika faktiki olaraq Dünya Birliyinə qovuşdu".

Ehtiyatda olan polkovnik Ə.Qənizadə onu da qeyd etdi ki, Heydər Əliyevin müəyyənləşdirdiyi strateji xətt Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. "Azərbaycan böyük inkişaf yolu keçib, regionumuzun ən inkişaf etmiş və qüdrətli dövlətinə çevrilib. Ölkəmizin ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağın Ermənistanın işğalından azad edilməsi, eyni zamanda, ordu quruculuğu Azərbaycan rəhbərliyinin ən çox önəm verdiyi strateji və dövlət əhəmiyyətli məsələlərdəndir.

Dövlətçiliyimizin və müstəqilliyimizin qarantı olan Silahlı Qüvvələrimiz bu gün ən müasir silah və texnika ilə təmin edilib, yüksək təchizata malikdir, intizama və döyüş hazırlığına nail olmuş qüdrətli güc strukturudur."

Beynəlxalq İnsan Hüquqları Müdafiə Komitəsinin Azərbaycan üzrə nümayəndəsi Elçin Axunzadə, Qarabağ müharibəsi veteranı, ehtiyatda olan polkovnik-leytenant İntiqam Mirzəyev çıxış edərək xalqımızın böyük itkilər bahasına qoruyub saxladığı müstəqilliyimizin dəyərindən söz açdılar, bayram münasibətilə tədbir iştirakçılarına xoş arzularını bildirdilər.

Azərbaycanın Dövlət Müstəqilliyi Gününə həsr edilmiş sənədli filmə mərasim iştirakçıları maraqla baxdılar.

**Əbülfət QASIMOV,**
**Azərbaycan Hərb**
**Tarixi Muzeyi**



Neçə-neçə nəslin müqəddəs arzusu olmuş dövlət müstəqilliyinə xalqımız asanlıqla nail olmayıb. Ona görə onun dəyəri hər bir vətənsevər azərbaycanlı üçün əvəzsizdir. Azərbaycan Respublikasının müstəqilliyi xalqımızın ən önəmli sərvətidir.

Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı 1991-ci il oktyabrın 18-də qəbul edilsə də, əslində, Azərbaycan özünün əsl müstəqilliyini ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra əldə etdi. Məhz Ümummilli Liderin zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı, Vətənə tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Azərbaycanın dövlətçiliyinə zərbə olan separatçılığın inkişafına imkan verilmədi, belə halların yaranmasına şərait yarada biləsi amillər birdəfəlik ləğv olundu. Ulu Öndərin yorulmaz səyləri nəticəsində qısa müddətdə Azərbaycanın səsi ən nüfuzlu beynəlxalq təşkilatların kürsüsündən gəldi. Dünyanın aparıcı dövlətləri Azərbaycanla ikitərəfli, çoxtərəfli əlaqələr qurdu və bu əlaqələr indi də uğurla davam etdirilməkdədir.



Müstəqilliyin əvəzsiz bir nemət olduğunu və xalqın tarixi taleyində çox önəmli rol oynadığını böyük qürur hissi ilə bəyan edən Heydər Əliyev Azərbaycanın müstəqilliyini əbədi və dönməz etdi. Dahi rəhbərin "Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir" kəlamı hər birimizin yaddaşına hopdu. Əsl müstəqillik isə öz sərvətlərinin tam sahibi olmaqdır.

1994-cü il sentyabrın 20-də Heydər Əliyevin müəllifi olduğu nəhəng neft müqaviləsi - "Əsrin kontraktı" imzalandı. Bununla da Azərbaycan ilk dəfə olaraq öz sərvətlərinin sahibi kimi çıxış etdi. Bu müqavilələr həm iqtisadi cəhətdən səmərəli idi, həm də dövlətimizin nüfuzunun artması baxımından.

Ulu Öndərin müstəqilliyimizin qorunub saxlanması və möhkəmləndirilməsi istiqamətində yorulmaz səyləri bu gün onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə başçısının rəhbərliyi ilə Azərbaycan siyasi, iqtisadi, sosial və hərbi sahələrdə yüksək tərəqqi əldə edib. Azərbaycan yerləşdiyi bölgədə baş verən strateji, siyasi və iqtisadi proseslərin gedişinə təsir göstərməyə qadir olan ölkəyə çevrilib. Dövlətimizin başçısının həyata keçirdiyi uğurlu inkişaf strategiyası nəticəsində ölkə iqtisadiyyatı özünün inkişaf sürətinə görə dünyada ən yüksək yerlərdə durur.

Ulu öndər Heydər Əliyev tərəfindən qorunub saxlanılan müstəqilliyimiz bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmləndirilir və onun əbədiliyi təmin edilir. Bütün bunlar bir daha deməyə əsas verir ki, Azərbaycanın müstəqilliyi əbədi və dönməzdir.

Biz gənclər bu dönməz əbədiliyin layiqli vətəndaşlarıyıq.

**Şəbnəm BEHBUDZADƏ,**
**Bakı şəhəri**

# Cocuq Mərcanlıda "Xalqla Ordu əl-ələ"

## devizi altında kütləvi vətənpərvərlik bayramı keçirilib

(Əvvəli 3-cü səhifədə)

"N" hərbi hissəsinin zabiti polkovnik Elşad Əbilov ordu ilə xalqın birliyindən danışaraq əbədiyaşar ümummilli lider Heydər Əliyevin məşhur bir kəlamını xatırladıb: "Ordu ilə xalqın birliyi həm xalqın gücünü artırır, həm də ordunu daha da qüdrətli edir. Bizim qarşımızda duran əsas vəzifələrdən biri ordu ilə xalqın sağlam, mənəvi birliyini yaratmaqdan ibarətdir". E.Əbilov sağlam mənəvi birliyin bu gün daha da möhkəmləndiyini, genişləndiyini qeyd edərək "Biz bu birliyi 2016-cı ilin Aprel döyüşləri zamanı bir daha gördük, hiss etdik. Aprel döyüşləri dövlətimizin qüdrətini, ordumuzun gücünü, xalqımızın isə birliyini, həmrəyliyini göstərdi", - deyib.



Polkovnik E.Əbilov Ali Baş Komandanı, Müdafiə Nazirliyinin rəhbərliyini və xalqımızı bütün şəxsi heyət və Vətən müdafiəçiləri adından bir daha əmin edib ki, Azərbaycan əsgəri bundan sonra da ölkənin müdafiəsində mərdliklə dayanacaq, işğal altındakı digər torpaqların da azad edilərək respublikamızın ərazi bütövlüyünün təmin olunması üçün qarşıya qoyulmuş istənilən əmr və tapşırığı qanı və canı bahasına olsa belə yerinə yetirəcəkdir.

Azərbaycan Milli Kulinariya Mərkəzinin baş direktoru Tahir Əmiraslanov cəbhəyanı bölgədə gördüklərindən qürur duyduğunu vurğulayaraq, bütün bu inkişaf, tərəqqi üçün müasir, müstəqil Azərbaycan dövlətinin qurucusu ulu öndər Heydər Əliyevin müqəddəs ruhu qarşısında baş əydiyini, müdrik Prezidentimiz, qətiyyətli Ali Baş Komandanımız İlham Əliyevə bütün xalqımızla yanaşı, milli kulinarlarımızın da adından dərin minnətdarlığını bildirib.

T.Əmiraslanov dünəndən hərbi hissələrdə olduğunu, əsgərlərlə bir yerdə nahar etdiyini, əsgər yataqxanalarında gecələdiyini, şəxsi heyətlə görüşdüyünü, Azərbaycan Ordusunun baş aşpazları ilə usta dərsləri keçirdiyini bildirərək, hərbi hissələrdəki nizam-intizamdan, yaradılan şəraitdən, maddi-texniki təminatın yüksək səviyyədə olduğundan, əsgər yeməkxanalarının restoranlardan, şadlıq evlərindən heç də fərqlənmədiyindən, əsgərlərin qidalanmasının çox yüksək səviyyədə təşkilindən, Azərbaycan əsgərinin sayəsində cəbhəyanı rayonların əhalisinin əmin-amanlıq, sabitlik şəraitində yaşamasından böyük həvəslə danışıb və bu gün hər kəsi orduya mənəvi dayaq olmağa, "Hər şey ordu üçün, hər şey qələbə üçün!" şüarı altında daha da sıx birləşməyə səsləyib.

1993-cü ildə dağıdılıb viran edilməsinə baxmayaraq bir an da olsun Cocuq Mərcanlı kəndini tərk etməyən və bu xarabalıqlar içərisində yaşayaraq doğma kəndinin yenidən bərpa olunacağı günü səbirsizliklə gözləyən və bugünkü təntənəyə bəlkə də hamıdan daha çox sevinən, Azərbaycan Prezidentinin Sərəncamı ilə 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif olunan Oqtay Həziyev bütün cəbrayıllılar adından dövlətimizin başçısına minnətdarlıq edib. Azərbaycan Ordusunun güc və qüdrətinə güvəndiklərini bildirib.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin mahnı və rəqs ansamblının geniş və rəngarəng konsert proqramı alqışlarla qarşılanıb.

Sonra Prezident İlham Əliyevin təşəbbüsü ilə inşa edilən Şuşa məscidinin oxşarı olan Cocuq Mərcanlı kənd məscidində Azərbaycan Milli Kulinariya Mərkəzi tərəfindən ulu öndər Heydər Əliyevin və şəhidlərimizin xatirəsinə ehsan süfrəsi açılıb. Din xadimləri dualar oxuyub. Ehsan mərasimində şəhid ailələri, müharibə qaziləri, hərbi qulluqçular, ictimaiyyət nümayəndələri və yerli sakinlər iştirak ediblər.

Həmin gün bütün hərbi hissələrdə respublikanın məşhur aşpazlarının iştirakı ilə hazırlanan milli yeməklərdən ibarət süfrələr açılıb. Kül altından boy ataraq ən müasir yaşayış məntəqəsinə çevrilən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində keçirilən "Xalqla Ordu əl-ələ" kütləvi vətənpərvərlik bayramı xalqla ordunun sağlam mənəvi birliyinin təntənəsinin nümayişinə çevrilib.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Beyləqanda müharibə veteranına "Hərbi xidmətlərə görə" medalı təqdim olunub




*18 oktyabr - Dövlət Müstəqilliyi Günündə Beyləqan şəhərindəki Heydər Əliyev Mərkəzində Azərbaycan Ordusunun ehtiyatda olan çavuşu, Qarabağ müharibəsinin veteranı Məmmədov Vüqar Vilayət oğluna "Hərbi xidmətlərə görə" Azərbaycan Respublikasının medalı təntənəli surətdə təqdim edilib.*

Müdafiə Nazirliyi rəsmilərinin, Beyləqan rayon İcra Hakimiyyəti rəhbərliyinin, ictimaiyyətin və bölgənin müdafiəsində dayanan hərbi hissənin nümayəndələrinin iştirak etdiyi tədbirdə rayon icra hakimiyyətinin başçısı Asif Ağayev çıxış edərək xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycanın dövlət müstəqilliyinin qorunmasında müstəsna xidmətlərindən, bu yolda apardığı mübarizələrlə dolu şərəfli xidmət yolundan danışıb və bu işin bu gün Ali Baş Komandanımız cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib.

Ulu öndər Heydər Əliyevin və şəhidlərin xatirəsi ehtiramla yad edilib.

Müdafiə Nazirliyinin nümayəndəsi, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani çıxış edərək tədbir iştirakçılarını Müdafiə Nazirliyinin rəhbərliyi adından əlamətdar gün münasibəti ilə təbrik edib və Azərbaycan Respublikasının müstəqilliyinin, ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, öz xidməti vəzifələrini və hərbi hissənin qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiyinə görə ehtiyatda olan çavuş V.Məmmədovun "Hərbi xidmətlərə görə" medalı ilə təltif olunması haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamını tədbir iştirakçılarının nəzərinə çatdırıb.

Medal alqışlar altında igid döyüşçüyə təqdim edilib.

Ehtiyatda olan çavuş V.Məmmədov keçən əsrin 90-cı illərinin əvvəllərində layiq görüldüyü medalın ona xeyli müddət sonra təqdim olunmasında göstərdiyi diqqət və qayğıya görə dövlətimizin başçısına və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirib. O, birinci Qarabağ müharibəsi zamanı ağır yaralanmasına baxmayaraq, bu gün də qardaşları və övladı ilə birlikdə torpaqlarımızın azadlığı uğrunda döyüşlərə hazır olduğunu bildirib.

Polkovnik Elşad Əbilov hərbi hissənin rəhbərliyi və şəxsi heyəti adından ehtiyatda olan çavuşu təbrik edib və ona uğurlar arzulayıb.

Tədbir "Qarabağ Azərbaycandır! Hər birimiz Qarabağ uğrunda Ali Baş Komandanın əmrlərinə hər an hazırıq!" şüarı ilə başa çatıb.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Azərbaycan Ordusunda "NATO günləri" başa çatıb



*Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan Ordusunda "NATO günləri" başa çatıb.*

Tədbir çərçivəsində NATO-nun Müttəfiq Qüvvələrin Avropadakı Ali Baş Qərargahında Tərəfdaşlıq İdarəsinin rəisi kontr-admiral Bülent Turanın rəhbərlik etdiyi nümayəndə heyəti Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsi, Silahlı Qüvvələrin Hərbi Akademiyası, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi və "N" hərbi hissəsini ziyarət edib.

Şəxsi heyət üçün "NATO bu gün və gələcəkdə", "Azərbaycan-NATO əməkdaşlığı", "NATO-nun hərbi məsələləri", "NATO-nun Əməliyyat İmkanları Konsepsiyası və Azərbaycan Ordusu" və digər mövzularda mühazirələr və təqdimatlar təqdim olunub.

*Ordu və cəmiyyət*

# "Milli-mənəvi dəyərlərimizin formalaşmasında və inkişafında qadınlarımızın da rolu böyükdür"

Rubrikamızın qonağı Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin Qadınlar və Hərbi Qulluqçuların Ailələri ilə iş üzrə şöbəsinin müdiri Zümrüd Səmədovadır.

**- Zümrüd xanım, ilk olaraq Azərbaycan qadınının cəmiyyətdəki rolu haqqında fikirlərinizi öyrənmək istərdik.**

- Tarix boyu Azərbaycan qadını dünyanın diqqətini müdrikliyi, sədaqəti, qəhrəmanlığı, yüksək analıq duyğuları ilə çəkib. Azərbaycan qadını həm də dövlət sərhədlərimizdə at belində qılınc çalıb, dövlət idarəçiliyində sözünü deyib. Qızıl Arslanın həyat yoldaşı Qətibə xanım, Uzun Həsənin anası Sara xatun, Şah İsmayıl Xətainin qızı Məhinbanu, Şirvanşah Xəlilullanın xanımı Pəri xanım, Şah Abbasın anası Xeyransa bəyim, Tuti Bikə və başqaları Azərbaycan qadınının cəmiyyətdə rolunun nədən ibarət olduğunun dəqiq təsdiqidir.

1918-ci il mayın 28-də Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin qəbul etdiyi İstiqlal Bəyannaməsi bərabərhüquqluluq prinsipini, seçmək və seçilmək hüququnu təsbit etdi. Bu sənəd Azərbaycanı Şərqdə qadınlara seçki hüququ verən ilk ölkə kimi tanıtdı. Müqayisə üçün qeyd etmək istərdim ki, qadınlar ABŞ-da 1920-ci ildə, Fransada 1944-cü ildə, İsveçrədə 1971-ci ildə səsvermə hüququ qazanıblar.

**- Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra qadınların cəmiyyətdə rolu milli dövlətçilik baxımından daha da yüksəldi, fəaliyyətləri genişləndirildi...**

- Doğrudur. Ümummilli liderimiz Heydər Əliyevin qadınların cəmiyyətdəki rolu ilə bağlı siyasətinin səmərəli şəkildə həyata keçirilməsinin nəticəsidir ki, onlar dövlət quruculuğunda, elmdə, mədəniyyətdə, təhsildə, səhiyyədə, idmanda daha geniş təmsil olunmağa başladılar. Ulu Öndərin 14 yanvar 1998-ci il tarixli fərmanı ilə gender siyasətinin həyata keçirilməsi məqsədi ilə Qadın problemləri üzrə Dövlət Komitəsi yaradıldı.

Bu gün Azərbaycan qadını həm də bacarıqlı siyasətçi, iş adamı, dövlət məmuru, xalqın inanıb səs verdiyi deputat, Birinci vitse-prezidentdir. Bu fəallıq, Azərbaycan qadınının malik olduğu tarixi ənənələrlə yanaşı, ölkəmizdə həyata keçirilən uğurlu gender siyasətinin mahiyyətindən irəli gəlir. Ulu Öndərin Azərbaycan qadını ilə bağlı fikirlərini xatırlayıram: "Cəmiyyətdə qadınların üzərinə daim çox böyük vəzifələr düşür, onların işi həmişə ağırdır. Ancaq onlar bu vəzifələri şərəflə yerinə yetirir və həmişə olduğu kimi, indi də cəmiyyətdə aparıcı rol oynayırlar".

Bu gün müstəqil Azərbaycanda qadınların cəmiyyətdəki yeri və rolu həm xalqımızın adət-ənənələrinə hörməti, həm də dövlətimizin siyasəti sayəsində yüksək qiymətləndirilir. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva qadınların cəmiyyətdəki rolu və yerinə, onların dövlət idarəçiliyində təmsil olunmalarına, irəli çəkilmələrinə diqqətlə yanaşırlar.

**- Son illərdə ordu quruculuğunda həyata keçirilən iri miqyaslı islahatların nəticəsidir ki, orduda qadın hərbi qulluqçular da xidmət edir.**

- Müasir dövrdə ordu quruculuğunda, ölkəmizin müdafiə qüdrətinin artırılmasında və ərazi bütövlüyümüzün bərpa edilməsində zəngin mənəvi-intellektual səviyyəsi ilə fərqlənən Azərbaycan qadını da yaxından iştirak edir. Azərbaycan Ordusunun bütün qoşun növlərində, xüsusi təyinatlı təhsil müəssisələrində, hərbi tibb ocaqlarında və digər sahələrdə xidmət edən minlərlə qadın Vətən qarşısında vəzifə borclarını şərəf və ləyaqətlə yerinə yetirir. Ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak edən qadınlarımız Vətənin müdafiəsində də fədakarlıq, şücaət göstəriblər. Vətən uğrunda neçə-neçə qadın şəhid olub. Onlardan 2 nəfəri Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

Mülki işlərdə çalışan qadınların da əməyi yüksək qiymətləndirilir. Azərbaycan qadını gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması və onların xalqa, cəmiyyətə layiqli övlad kimi formalaşmasında da əsl vətəndaş kimi çalışır.

**- Rəhbərlik etdiyiniz şöbənin fəaliyyəti haqqında bir qədər ətraflı məlumat verməyinizi xahiş edirəm.**

- Qadınlar və hərbi qulluqçuların ailə üzvləri ilə iş üzrə şöbə Müdafiə nazirinin əmri ilə yeni yaradılıb. Şöbəmizin fəaliyyət dairəsinə Müdafiə Nazirliyinin Aparatı, qoşun növləri, qarnizon, birlik, birləşmə və hissələr, xüsusi təyinatlı təhsil müəssisələri, Azərbaycan Ordusunun tabeçiliyində olan bütün hissə və bölmələr, müəssisə və təşkilatlar daxildir.

Şöbəmiz hərbi qulluqçuların və onların ailə üzvlərinin asudə vaxtının səmərəli təşkili, ailə-məişət problemlərinin öyrənilməsi və yaranan çətinliklərin vaxtında həlli, xidməti vəzifələrini yerinə yetirərkən həlak olmuş və sağlamlığını



itirmiş hərbi qulluqçuların ailə üzvlərinə qayğı, gənc və çoxuşaqlı hərbi qulluqçu ailələrinə dəstək və digər məsələlərdə komandanlığa və rəhbərliyə köməklik göstərir.

Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən belə vacib qurumun yaradılması qadınlar və hərbi qulluqçuların ailə üzvləri tərəfindən minnətdarlıq hissi ilə qarşılanır.

**- Ordu-cəmiyyət münasibətlərini tənzimləmək baxımından şöbənizin üzərinə böyük məsuliyyət düşür.**

- Azərbaycan Ordusunun şəxsi heyəti yüksək mənəvi-psixoloji hazırlığa malikdir. Bu həm də hər bir hərbi qulluqçunun milli mentalitetimizə bələd olmasının, onu yaşatmaq niyyətinin nəticəsidir. Azərbaycan cəmiyyətində insanların bir-birinə qarşılıqlı hörmətlə yanaşması önəmli faktordur. Bu, iş prosesində də, ailədə də öz əksini tapır. Yəni, Azərbaycan Ordusunda bu və ya digər təşkilatın, o cümlədən bizim təşkilatın müdaxiləsinə zərurət yaradan böyük problemlər mövcud deyil. Bəzi xırda çətinliklərin aradan qaldırılması ilə bağlı biz hüquqi müstəvidə, qanunvericilik əsasında fəaliyyət göstəririk. Mövcud çətinliyin problem səviyyəsinə çatmasının qarşısını alırıq. Bu baxımdan şöbənin işini ordu-cəmiyyət münasibətlərində yeni bir mərhələ kimi dəyərləndirmək olar.

**- Bu müddət ərzində hansı işlər görmüsünüz?**

- Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində görüşlər keçiririk. Davamlı olaraq ön xətdə oluruq. Daha çox müayinə və müalicə, sosial və məişət problemləri ilə bağlı müraciətlər olur.

Bu günlərdə ön xətdə xidmət edən hərbi qulluqçunun övladının səhhətində yaranan problemlə bağlı müraciət olmuşdu. Müdafiə Nazirliyi rəhbərliyinin diqqəti və köməkliyi ilə körpə müalicə üçün dərhal Türkiyəyə göndərildi. Müalicə müddətində baş məsləhətçimiz Sairə Rəsulova körpəyə baş çəkərək ailəsinə mənəvi dəstək oldu. Ankarada yerləşən bizim hərbi attaşelik aparatının nümayəndələri də daim ailənin yanında oldular. Fəaliyyətə başladığımız ilk günlərdə Azərbaycan Dövlət Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında şəhid övladlarının müayinə və müalicəsi aksiyasını həyata keçirdik. Füzuli rayonunda olarkən Aprel döyüşlərində şəhid olan mayor Elnur Əliyevin yaxınları ilə görüşdük, ailənin qayğıları ilə maraqlandıq.

Naxçıvana da çox maraqlı səfərimiz oldu. Orada Əlahiddə Ümumqoşun Orduda xidmət edən qadınlar, hərbi qulluqçuların həyat yoldaşları ilə görüşlər keçirdik.

"Uşaqlar xəyalların, arzuların ümid tumurcuğu, ailə qapısının misilsiz sevinc qaynağı, cənnətin qoxusunu dünyaya yayan yeganə gül, millətin övladı və ilahi əmanətdir", - deyib müdriklərimiz. Ailədə uşağın xoşbəxt böyüməsi, onun gələcək üçün layiqli, dəyərli vətəndaş kimi yetişməsi üçün Azərbaycan dövləti bütün imkanlarını səfərbər edib. Uşaqların sağlamlığının qorunması, onların qayğısız, milli ruhda böyüməsi üçün məsuliyyət ilk olaraq valideynlərin üzərinə düşür. Bu baxımdan ananın rolu əvəzedilməzdir. Şöbəmiz məhz bu və bu kimi amilləri əsas götürür və götürəcəkdir.

Azərbaycan Ordusunun müxtəlif hissə və təşkilatlarında, eləcə də cəbhə bölgəsində yerləşən bölmələrdə fəaliyyət göstərən Qadın Şuralarının işinə nəzarət edirik. Ailədaxili problemlər olduqda bölgəyə ezam olunuruq. İlk olaraq ailə başçıları ilə görüşüb söhbətlər aparılır, ailənin problemləri nəzarətə götürülür və həlli istiqamətində addımlar atılır.

Qadın ailənin özəyidir. Milli-mənəvi dəyərlərimizin formalaşmasında və inkişafında qadınların da rolu böyükdür. Birinci vitse-prezident Mehriban xanım Əliyeva qadının ailədə, eləcə də cəmiyyətdə rolu haqqında deyir: "Hər bir qadın üçün onun ailəsi, onun uşaqları həyatının ən vacib, ən mühüm hissəsidir. Mən özüm üç uşaq anası olaraq, analıq missiyasını həyatımın ən vacib missiyası kimi dəyərləndirirəm". Bu yanaşma Azərbaycan xalqının milli-mənəvi dəyərlər sistemində ailə amilinin nə qədər önəmli olduğunu diqqətə çatdırır.

Mehriban xanımın təşəbbüsü ilə həyata keçirilən tədbirlər təkcə Azərbaycanla məhdudlaşmır, eyni zamanda, beynəlxalq sülh və sabitliyin təmin edilməsində önəmli rol oynayan sivilizasiyalararası dialoq mühitinin formalaşdırılması, dünya mədəni irsinin qorunması üzrə aktual sahələri də əhatə edir.

**- Hansı dövlət təşkilatları ilə birgə işləyirsiniz?**

- Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə bilavasitə əməkdaşlıq edirik. Komitənin sədri Hicran Hüseynova bizə zəruri olan ədəbiyyatla təmin olunmağımıza kömək edir, fəaliyyətimizlə bağlı müəyyən tövsiyələrini əsirgəmir. Komitədə keçirilən iclaslarda fəal iştirak edirik. Bildirim ki, "Azərbaycan Respublikasında Gender bərabərliyi üzrə 2019-2024-cü illər üçün Milli Fəaliyyət Planı"nın layihəsi sənədi də diqqət mərkəzimizdədir.

Müdafiə Nazirliyinin əməkdaşları olaraq, eyni zamanda, fəaliyyətimiz çərçivəsində beynəlxalq qurumlarla da əməkdaşlıq etmək niyyətindəyik. Biz BMT Təhlükəsizlik Şurasının Qadınların hüquq və imkanlarının genişləndirilməsi Qətnaməsinin tələblərini əsas prioritet hesab edirik. Silahlı münaqişələrin qadınlara qeyri-mütənasib və müstəsna təsiri məsələləri ilk dəfə olaraq məhz bu Qətnamədə öz əksini tapıb.

**- Yuxarıda qeyd etdiklərinizin nəticəsidir ki, Azərbaycan qadını cəmiyyətdə öz layiqli yerini tutub...**

- Azərbaycan qadınının həm ailədə, həm işdə, həm də cəmiyyətdəki layiqli mövqeyi dövlətimizin uğurlu, xoşbəxt sabahına, xalqımızın firavanlığına ən ciddi təminatlardan biridir. Respublikamızda bərqərar olan demokratik mühit ölkə qadınlarının zəngin potensialından səmərəli bəhrələnmək üçün əlverişli zəmin yaradır.

Azərbaycan qadınının ədalət, humanizm, xeyriyyəçilik və digər bəşəri prinsiplərə söykənən, sərhəd tanımayan çoxşaxəli fəaliyyəti nəinki Azərbaycan, hətta dünya qadınları üçün nümunə və örnəkdir. Azərbaycan qadını bu gün dünya qadınları hərəkatının ön cərgəsində ağlı, zəkası, istedadı, ləyaqəti ilə təmsil olunur.

**Söhbəti apardı:**
**baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan hərbi idmançılarının da iştirak etdiyi Hərbçilərin VII Dünya Oyunlarının açılış mərasimi keçirilib

WUHAN 2019
7th CISM Military World Games

*Çinin Uxan şəhərində Beynəlxalq Hərbi İdman Şurasının (CISM) təşkil etdiyi Hərbçilərin VII Dünya Oyunlarının açılış mərasimi keçirilib.*

Azərbaycan hərbi idmançılarının da iştirak etdiyi yarışda şuranın üzvü olan 109 ölkədən 9300 hərbçi idmanın 27 növü üzrə mükafatlar uğrunda mübarizə aparacaq. Bu il keçirilən dünya oyunları iştirakçılarının və yarış növlərinin sayına görə indiyədək keçirilmiş ən böyük oyunlar olacaq.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Uxan şəhərindəki 35 məkanda 10 gün davam edəcək beynəlxalq idman tədbirinin rəsmi açılış mərasimində rəsmi qonaqlar, yüksək rütbəli hərbçilər, beynəlxalq idman aləminin tanınmış simaları iştirak ediblər.

Qeyd edək ki, yarışda Azərbaycanı Mərkəzi Ordu İdman Klubunun (MOİK) güləşin sərbəst və yunan-Roma, eləcə də cüdo, boks və atıcılıq idman növləri üzrə komandaları təmsil edəcək. Yarışlara qatılan komandamızın tərkibində dünya və Avropa çempionları, eləcə də Olimpiya Oyunlarının, respublika birinciliklərinin qalibi olan idmançılar üstünlük təşkil edirlər. Komandamızın tərkibində beynəlxalq dərəcəli hakimlər də var.

* * *

Çinin Uxan şəhərində keçirilən Hərbçilərin VII Dünya Oyunları yarışları davam edir.



Oktyabrın 20-də cüdo komandamızın üzvləri Hidayət Heydərov (81 kq çəki dərəcəsində) və Məmmədəli Mehdiyev (90 kq-dək) uğurla çıxış edərək yarışın bürünc medallarına layiq görülüblər.

Qeyd edək ki, komandamıza ilk bürünc medalı Hidayət Heydərov qazandırıb.

Digər təmsilçimiz Elmar Qasımov (100 kq-dək) ilk görüşündə Çili idmançısı Oskar Alarkona ipponla qalib gəlib. Lakin 1/4 final mərhələsində fransız Olivar Sedrikə məğlub olaraq, təsəlliverici görüşlərdə mübarizəni davam etdirəcək.

Boks yarışındakı təmsilçimiz Sərxan Əliyev (60-64 kq) ilk görüşündə Şri-Lanka idmançısı Racakaruna Bandaraya 5:0 hesabı ilə qalib gəlib. Sərxan Əliyev növbəti görüşünü braziliyalı Olivyera Vandersona qarşı keçirəcək.

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyə Ordusu Suriyanın Rəsulayn şəhərində terrorçulara məxsus yeraltı tunellər aşkarlayıb



Türkiyə Ordusu Suriyanın şimalında keçirdiyi "Sülh çeşməsi" əməliyyatı nəticəsində YPG və PKK terrorçularından azad etdiyi Rəsulayn şəhərində terrorçulara məxsus yeraltı tunellər sistemi aşkarlayıb.

Tunelin şəhər mərkəzinin müxtəlif istiqamətlərini əhatə etdiyi və Türkiyə sərhədinə qədər uzandığı bildirilir. Əsas girişi ərazidəki anbarların birinin içində olan tunel yerin təxminən 13 metr dərinliyindədir. Uzunluğu kilometrlərlə ölçülən yeraltı keçid sisteminin hündürlüyü 3, eni isə 2,5 metrdir.

## Tarixdə ilk dəfə iki qadın astronavt açıq kosmosa çıxıb



Tarixdə ilk dəfə iki qadın astronavt açıq kosmosa çıxıb. NASA-nın astronavtları Kristina Kuk və Cessika Meir oktyabrın 18-də Beynəlxalq Kosmik Stansiyanın enerji sistemində bloklardan birini dəyişmək üçün onun göyərtəsindən açıq fəzaya çıxıblar. Bu proses NASA-nın saytında canlı yayımlanıb. Bakı vaxtı ilə 15:37-də "Quest" şlüzünün lyuku açılıb və qadın astronavtlar açıq kosmosa çıxıblar. Onlar ötən həftə sıradan çıxmış blokun yenisi ilə əvəzlənməsi üçün burada altı saat çalışacaqlar. Kuk son iki həftədə üç dəfə açıq kosmosa çıxıb.

## ABŞ mətbuatı: Pentaqon 2 min əsgəri Əfqanıstandan çıxarıb



Birləşmiş Ştatlar artıq Əfqanıstandan 2 min əsgəri çıxarıb. Bu xəbəri "The New York Times" qəzeti yayıb.

Qəzetin xəbərində deyilir ki, ABŞ və NATO-nun Əfqanıstandakı qoşunlarının komandanı, general-leytenant Ostin Skott Miller Pentaqonun bu ölkədəki qoşunlarının sayının 12 minə endiyini təsdiqləyib. Qeyd olunur ki, "Taliban" hərəkatı ilə danışıqlarda yekun qərar qəbul edilməməsinə rəğmən ABŞ hökuməti əsgərlərin çıxarılması prosesinə start verib. Bundan başqa, qəzetə məlumat verən hərbi mənbə bildirib ki, bu yaxınlarda Pentaqonun Əfqanıstandakı əsgərlərinin sayı 8,6 min nəfərə endirilə bilər.

## Əfqanıstanda gedən döyüşlərdə 20 əsgər və 18 “Taliban” silahlısı öldürülüb



Əfqanıstanın mərkəzindəki Uruzqan vilayətində gedən döyüşlərdə 20 əsgər və 18 "Taliban" silahlısı öldürülüb. Hökumət qüvvələri silahlıların ələ keçirdikləri Gizab rayonunu azad etmək üçün hərbi əməliyyatları davam etdirirlər.

Vilayətin polis rəisi Xetab Xanjari ölənlərin səkkizinin ordu mənsubu, beşinin isə polis əməkdaşı olduğunu bildirib. Onun sözlərinə görə, "Taliban" silahlıları arasında ölənlərin sayı rəsmi məlumatdan daha çoxdur. "Taliban" hərəkatının sözçüsü Zabihulla Mücahed yerli mətbuata müsahibəsində bildirib ki, hökumət qüvvələri Gizab rayonunu azad etməyə müvəffəq ola bilməyiblər və ağır itkilərə məruz qalıblar. O əlavə edib ki, döyüşlərdə Əfqanıstan təhlükəsizlik qüvvələrinin 14 komandiri həlak olub.

**AZƏRTAC-ın materialları əsasında**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, oktyabrın 22-də Xocavənd rayonu ərazisində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***22 oktyabr 2019-cu il.*** Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 20 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı kəndində, Berd rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Acarlı, Yusifcanlı, Füzuli rayonunun Qərvənd, Aşağı Seyidəhmədli, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# HDQ-nin taktiki təlimləri başa çatıb

*Azərbaycanın Xəzər dənizindəki ərazi sularında enerji infrastrukturunun mühafizəsi üzrə Hərbi Dəniz Qüvvələrində (HDQ) keçirilən taktiki təlimlər başa çatıb.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, gəmi taktiki qruplarının qarşılıqlı fəaliyyətdə döyüş əməliyyatlarının planlaşdırılması və aparılması məsələlərinin işlənilməsi üzrə keçirilən təlimin məqsədi gəmi birləşmələri tərkibində birgə fəaliyyətin təşkili olub.

Təlimdə qüvvələrin idarəolunması üzrə komandirlərin və qərargahların bacarıqları təkmilləşdirilib, gəmi birləşmələrinin döyüş tapşırıqlarının yerinə yetirilməsi hazırlıqları yoxlanılıb.

# Azərbaycanla Pakistanın hərbi sahədə əməkdaşlığının genişləndirilməsi məsələsi müzakirə olunub

*Azərbaycanın Pakistandakı səfiri Əli Əlizadə bu ölkənin Silahlı Qüvvələrinin Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri, ordu generalı Zubair Mahmud Hayatla görüşüb.*

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan və Pakistanın silahlı qüvvələrinin hərbi və hərbi-texniki sahədə əməkdaşlığından, əlamətdar günlərdə yüksək səviyyəli heyətlə qarşılıqlı iştirakdan məmnunluq ifadə olunub, regionda sülh və sabitliyin təmin olunmasında Pakistan və Azərbaycanın göstərdiyi səylər, Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti, işğalçı ölkənin vaxtaşırı həyata keçirdiyi təxribatlar, Dağlıq Qarabağ və Kəşmir məsələlərinin BMT-nin qəbul olunmuş qətnamələri əsasında həllinin zəruriliyi haqqında danışılıb. Söhbət zamanı bu sahədə təcrübə mübadiləsinin aparılması, birgə təlimlərin, qarşılıqlı səfərlərin təşkilinin davamlı olması haqqında fikir mübadiləsi də aparılıb.

Zübair Mahmud Hayat iki ölkə arasındakı münasibətlərin nümunəvi xarakter aldığını, Pakistanın Azərbaycanla əlaqələrə xüsusi önəm verdiyini, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Pakistanın Azərbaycanı daim dəstəklədiyini bildirib.

Baş leytenant Hacıyev Pərviz Şirvan oğluna, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Mirzəyev Camal Mirəsgər oğluna verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 619
Nüsxə 3950